

# 20 Yanvar Ümumxalq Hüzn Günüdür

## Müstəqilliyə aparan yolun qanlı səhifəsi–20 Yanvar

***Tariximizə 20 Yanvar faciəsi kimi daxil olmuş, hər ildönümü Ümumxalq Hüzn Günü kimi qeyd olunan hadisədən 27 il keçir.1985-ci ildə keçmiş SSRİ rəhbəri Mixail Qorbaçovun Qərb dövlətlərinin təhriki ilə irəli sürdüyü sərsəm «yenidənqurma» ideyası dünyanın altıda bir hissəsini əhatə edən yüzdən artıq millətin və xalqın yaşadığı bu nəhəng dövlətdə böyük faciələrə yol açdı. Bu faciələrin ən dəhşətlisi isə vətənimiz Azərbaycanın başına gətirildi.***

Bu, bir neçə amillə bağlıdır. Birinci növbədə ulu öndər Heydər Əliyev Moskvada hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra Azərbaycana qarşı hər tərəfli hücumlar başlandı. Azərbaycan rəhbərliyinə səriştəsiz şəxslər gətirildi. Onlar respublikada siyasi iqtisadi məsələləri nəzarət altında saxlamaq, inkişaf etdirməklə yox, Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünün təftişilə məşğul olmağa başladılar.

Ermənilərin Vətənimizə qarşı ərazi iddialarının qızışdığı bir dövrdə respublika rəhbərliyi separatçılara qarşı mübarizə əvəzinə Moskvadan yüzlərlə hüquq mühafizə orqanları işçisini Heydər Əliyevin respublikaya rəhbərlik dövrünü araşdırmaq üçün Azərbaycana dəvət etdi. Bu hadisə cəmiyyətin əsas diqqətini erməni millətçilərinə qarşı mübarizədən yayındırdı və cəmiyyətdə böyük parçalanmaya səbəb oldu. Sadə kolxozçudan rəhbər işçiyə qədər on minlərlə insan hər gün Moskva müstəntiqlərinin istintaqına cəlb olunurdu. Halbuki bu vaxt erməni millətçiləri soydaşlarımızı kütləvi şəkildə öz dədə-baba yurdlarından qovurdu. Dəhşətlisi budur ki, respublika rəhbərliyi ermənilərin bu vəhşi seperatçılığını Heydər Əliyev dövründə guya iqtisadiyyatda və idarəetmədə «buraxılan səhvlərlə» əlaqələndirməyə çalışırdı.

Soydaşlarımızın əzəli torpaqlarımızdan vəhşicəsinə qovulmasının, torpaqlarımızın erməni vəhşiləri tərəfindən ələ keçirilməsinin qarşısının alınması üçün respublika rəhbərliyinin heç bir iş görməməsi, əksinə hərəkətləri ilə cəmiyyəti parçalaması kortəbii, təşkil olunmamış kütləvi hərəkatların baş qaldırmasına səbəb oldu. Doğrudur digər sovet respublikalarında da kütləvi hərəkatlar baş qaldırmışdı. Ancaq həmin respublikalarda cəmiyyət Azərbaycandakı kimi parçalanmamışdı. Rəhbərlik, ziyalılar və xalqın digər təmsilçiləri vahid cərgədə idi. Azərbaycanda isə respublika rəhbərliyinin təqsiri üzündən xalqın vahid hərəkatını yaratmaq mümkün olmamışdı.

Beləliklə qeyd etdiyimiz kimi xalqın kortəbii hərəkatı yaranmışdı. Fürsətdən istifadə edən SSRİ xüsusi xidmət orqanları xalq hərəkatının içərisinə kifayət qədər təxribatçı yeridə bilmişdi. Bunun nəticəsidir ki, 1988-ci ilin fevralında Sumqayıtda kütləvi iğtişaş törədilmiş, bir sıra şəhər və rayonlarda partiya və dövlət idarələrinin qanunsuz ələ keçirilməsi, yandırılması, dağıdılması və sair qanuna zidd əməllər baş vermişdi. Bütün bunlar 1990-cı ilin 20 yanvarına zəmin hazırlayırdı. 1990-cı ilin yanvar ayının 13-də Bakıda xüsusi xidmət orqanlarının əli ilə kütləvi iğtişaşlar törədildi. Maraqlıdır ki, Ermənistan adlanan əzəli torpaqlarımızda soydaşlarımıza qarşı 1988-ci ilin əvvəlindən başlayaraq törədilən soyqırım, kütləvi qovulma hadisələrinə və sovet hakimiyyətindən əsər-əlamət qalmamasına gözünü yuman SSRİ rəhbərliyi Bakıda bir neçə erməninin guya fiziki təzyiqə məruz qalması və hakimiyyətin təhlükədə olmasını bəhanə gətirərək fövqəladə vəziyyət elan edilmədən dinc əhali üzərinə çox böyük nizami ordu və digər silahlı birləşmələr göndərdi. Buna baxmayaraq hərəkatın içərisinə yeridilmiş təxribatçılar dinc əhalini küçə və meydanlara səsləyir, ordunun əhaliyə atəş açmayacağını, kiçik bir müqavimət görən kimi geri çəkiləcəyini söyləyirdilər. 20 yanvarda qətl edilən, yaralanan, itkin düşən dinc əhalinin sayı haqqında çox yazılıb. Bir neçə fərqlə rəqəmlər demək olar ki, eynidir. Ancaq məsələ qətl edilənlərin sayında deyil. Aqillər demişlər ki, bir nəfərin nahaq öldürülməsi faciədir. Bir neçə nəfərin öldürülməsi statistika. Bəli 20 yanvarda 131 nəfər günahsız insan qətlə yetirilibsə bü 131 faciədir.

20 yanvar faciəsində SSRİnin keçmiş rəhbərliyi qarşısına qoyduğu məqsədə nail ola bilmədi. Azərbaycan xalqı qorxaraq müstəqillik yolundan geri çəkilmədi. Əksinə, mübarizə daha da gücləndi və tarix üçün bir göz qırpımı qədər vaxtdan sonra 1991-ci ilin oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini elan etdi.

✍ **Qüdrət SƏMƏDOV.**

## Bu böyük facia müstəqilliyə gedən yolu yaxınlaşdırdı

***1990-cı ilin yanvarında Azərbaycan təlatümlü günlərini yaşayırdı. Separatçı ermənilər getdikcə azğınlaşırdılar. Sovet dövləti isə bunlara göz yumur, Azərbaycan torpaqlarının işğalına, azərbaycanlılara divan tutulmasına aşkar və gizli yolla himayədarlıq edirdi.***

***Azərbaycan xalqı artıq dərk edirdi ki, SSRİ dövləti ona heç bir kömək göstərməyəcək. Nicat yolu imperiya boyunduruğunu atmaqda və müstəqillik əldə etməkdədir. İmperiya isə azadlığını əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşırdı. Azərbaycanda xalqdan uzaq rəhbərlər Moskvanın göstərişi ilə hərəkət etdiklərindən xalqın etimadını tamamilə itirmişdilər.***

Xalq hərəkatını boğmaq, Azərbaycanın müstəqilliyə doğru gedən yolunu bağlamaq üçün imperiya başçıları müdhiş bir qırğın planı hazılamışdılar. Mixail Qorbaçovun başçılıq etdiyi sovet rəhbərliyi SSRİnin dağılmasının qarşısını almaq, azadlığını tələb edən başqa xalqlara da «dərs vermək» üçün SSRİ ərazisində azadlıq hərəkatının ən güclü mərkəzi olan Bakını qan içində boğmaq qərarına gəlmişdi. Odur ki, Bakı ətrafına ən müasir silahlar və hərbi texnika ilə təchiz olunmuş müxtəlif qoşun hissələri gətirilmişdi. 1990-cı il yanvarın 19-da SSPİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman verdi. Xalqı qəflətən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədilə qoşunlardan istifadə etmək niyyəti ilə fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət, komendant saatı vaxtının əvvəlcədən elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi.

«Bakı əməliyyatı»na SSRİnin Müdafiə Naziri Dmitri Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, başqa yerlərdən gətirilən hərbi hissələr, hərbi gəmilərdən gələn desantçılar dinc əhali üzərinə hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla əsasən avtomobillərdən olan barikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahdan güclü atəşə tuturdular. Qaçıb müxtəlif sığınacaqlarda gizlənən adamlar döyüş texnikasındakı projektorların köməyi ilə tapılır, atəşə tutulurdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən yoldan keçənləri, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Bakıda və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü. Şəhər təsərrüfatına və əhalinin mülkiyyətinə külli miqdarda ziyan dəymişdi.

Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanatla çıxış etdi. Ulu öndər xalqla birgə olduğunu bildirdi və 20 yanvar faciəsinə siyasi qiymət verdi. Qırğının hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və respublika rəhbərliyinin günahı üzündən yol verilmiş hərbi cinayət olduğunu bəyan etdi.

Fövqəladə vəziyyət olmasına baxmayaraq, yüz minlərlə insan seli Bakıda yanvarın 22-də azadlıq şəhidləri ilə vidalaşdı. Şəhər matəm libası geyinmişdi. Respublikada üç günlük matəm elan olundu. «Azadlıq» meydanında böyük matəm mitinqi keçirildi. Bu, azadlıq yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi.

İmperiya qanlı əməlləri ilə Azərbaycan xalqının azadlıq hərəkatını boğa bilmədi. Bu böyük faciə Azərbaycan xalqını daha sıx birləşdirdi, müstəqilliyə gedən yolu yaxınlaşdırdı.

✍ **Aslan CƏLİLOV.**

## Tariximizi yaşadırıq

***Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi daim ekspozisiyasını genişləndirməklə tamaşaçılarına nümunəvi mədəni xidmət göstərir. Son zamanlar məktəblilərin vaxtaşırı muzeyə gəlməsi onlarda tariximizə xüsusi maraq oyatmışdır.***

Muzeyin ekspozisiyası ilə tanış olan uşaqlar buradakı eksponatların tarixinə diqqət yetirərək tarixə aid biliklərini möhkəmləndirir və artırırlar. Tarixə dair biliklərini eksponatlar əsasında dərinləşdirən məktəblilər böyük maraqla Azərbaycan xalqının ulu keçmişinə bələd olurlar.



Məktəblilərin muzeyə gəlişi zamanı kollektivimiz var qüvvəsi ilə çalışır ki, gələcək nəsil tariximizi dərindən mənimsəsin. Vətənə sevgi, məhəbbət hissləri belə ekskursiyalar zamanı özünü daha qabarıq göstərir.

Ekskursiyaların sonunda məktəblilərlə "Qədim Azərbaycan tarixi" mövzusunda diskussiyalar aparılır. Bu diskussiyalar onların tarix fənni üzrə qazandıqları biliklərini bir daha möhkəmləndirir.

## Xatirə saatı

***Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində həmyerlimiz, əməkdar elm xadimi, AMEA-nın Əlyazmalar İnstitunun 1972-1995 illər ərzində direktoru olmuş filologiya elmləri doktoru, professor Cahangir Qəhrəmanovun (1927-1995) xatirəsi yad edilmişdir.***

Böyük maraqla qeyd olunan Xatirə saatını giriş sözü ilə muzeyin direktoru Xalis Məmmədov açaraq görkəmli alimin həyat və fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat vermişdir.

Xalis Məmmədov görkəmli elm xadimi, Qəbələnin fəxri vətəndaşı Cahangir Qəhrəmanovun dəfələrlə muzeyimizə gəlişi və bizimlə sıx əməkdaşlığı, muzeyin yaradılmasında böyük köməyi haqqında xatirələrini söyləmişdir.

Azərbaycanın qədim əlyazmalarının tapılması, toplanılması və öyrənilməsi sahəsində böyük xidmətlər göstərmiş Cahangir Qəhrəmanovun daimi güşəsi muzeyimizin ekspozisiyasında sərgilənməkdədir.

Tədbirin sonunda güşəyə baxış keçirilmişdir.

✍ **İlhamə Seyidova, muzeyin kiçik elmi işçisi.**